*Aydın Əfəndi*

### ŞAİR

*"Ürəkdə ölüm xofu -*
*boş, qaranlıq bir dünya"*
*Ş.Bodler "Axşam harmoniyası"*

Səhvlərimin ucbatından
şeir yazmağa başladım.
O şeirləri
ayaq açıb yeriyəndəmi yazdın?
Yox.
İlk sevdaya düşəndəmi?
Yox.
Güdaza gedəndəmi?
Yox.
Güdaza verəndəmi?
Yox.
Onda uşaq idim hələ,
bir gün yuxudan ayılıb anamı çağırdım,
özümü unudub birdən çığırdım -
- Ana, ana, eşidirsən? -
ölmək istəmirəm mən.

*Korrodo Qovani*

Sən qaranlıq evin astanasında
necə qorxurdun mənim isti öpüşlərimdən,
üşüyürdün islanmışdın yağışda,
diksinirdin hər ildırım çaxanda.
Və özünü iyirmi yaşda xatırlayırdın
soyuq yağış damlaları yanağından axanda.

*Antonio Rinaldi*

### YAY AXŞAMI

Uzun bir gün yanıb külə dönürdü
sərhəd kölgələrində,
bu axşam yenə balaca ev
çiçəkləyir rahatlıq üçün.
Pəncərə şüşələrində bayram edir
çox uzun sürən bir gün

*Corco Kaproni*

* * *

Sənin havadan
asılmış eyvanına can atır
bağçadan gül rəngi nanə qoxusu,
yay həyəcanlanıb artıq,
və ətirşah
yanağını oxşayır
isti barmaqlarıyla.
Adət etdiyin kimi
bağlayırsan sən,
pəncərənin o üzündə
nələr gözləyir səni?
Pəncərə şüşəsində
solğun şəffaf göyüzü,
xatirə aynasında
biri-birimizdən ayırır bizi.

*Melo Freni*

### CƏNUB HAQQINDA HEKAYƏ

Fred bilmirəm sən oxuyursanmı
Mən bilmirəm, Fred
Corciya və ya Missuri ştatında
amma oxuduğun nəğmə
Cənub haqqındadı buna əminəm.
Sənin nəğməni dinləyirəm mən
və öz səsimi tanıyıram sənin nəğmələrində
bəlkə mən də dənizdə nəğmə oxuyan zaman
səsinə səs verirəm uzaqdakı dostumun.

*Karlo Betokki*

Burda vaxtsız solur güllər,
burda yaralı, sınıq könüllər -
xeyirlə şər savaşır.

Bu qayalıq sərt torpaq,
bu qəhrəman, mərd torpaq,
bu dənizdə üzən gəmi,
bu yaşıl zəmi
götürün, hər şey sizin olsun,
bu yazdığım şeiri də götürün.

Bir zeytun ağacına
söykənmişəm məmləkətimdə,
mən ürəyimlə dilim arasında,
mən olumla ölüm arasında
yaşayıram ömrümü,
həqiqət yolçusu kimi...

*Anoniya Poççi*

### ZAMAN

Sən şirin yuxuda ikən
bahar keçir, qış keçir
dağların zirvəsindən.
Dağ başında qar əriyir,
külək doğulur.
Yarpaqlar pıçıldaşır evin dalında
gün işığı cığırlarda sovurur
yağış damlalarını.

Sən hələ yuxuda ikən
günəş ili keçir
ağacların, buludların buludların üstündən.

*Aldo Palaççeski*

### NAMƏLUM ADAM

- Bu axşam onu gördünmü?
- Gördüm.
- Dünən axşamda görmüşdün?
- Hər axşam o burdan keçir.
- O dönüb səni gördümü?
- O ətrafına baxmır.
  o qürubun üfüqdə buraxdığı
  işıq zolağını seyr edir,
  sonra harasa gedir.
- Təkmi?
- Tək.
- Bəs o necə geyinir?
- O qara geyinir həmişə, qara.
- Hara gedir bəs hara?
- Bəs harda yaşayır o?
  Hansı uçuq xarabada?
  Hansı sarayda?



**Tərcümə edən: Adil Mirseyid**